## «Vergi güzəştləri» mövzusunda seminar

Bu günlərdə Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində «Vergi güzəştləri» mövzusunda seminar keçirilmişdir. Seminarda Azərbaycan da daxil olmaqla Türkiyə, Qazaxıstan, Mərakeş, Səudiyyə Ərəbistanı, Çin, Monqolustan, İran və Ermənistandan ümumilikdə 15 nümayəndə iştirak etmişdir. Seminar ərzində ekspertlər tərəfindən vergi güzəştlərini əhatə edən müxtəlif mövzularda, eləcə də ayrı-ayrı nümayəndər öz ölkələrində tətbiq olunan hər hansı bir vergi güzəşti barədə təqdimatlar keçirmişlər. Seminarın əsas məqsədi investisiyaları, o cümlədən xarici investisiyaları cəlb etmək, yeni iş yerlərinin yaradılmasını təmin etmək və bununla da yüksək iqtisadi artım templərinə nail olmaq üçün investisiyaları stimullaşdıran vergi güzəştlərinin tətbiqi məsələlərini araşdırmaq olmuşdur. Seminarda müzakirə olunan mühüm məsələlərdən biri də vergi güzəştinin tətbiqi ilə əlaqədar büdcənin qarşılaşdığı maliyyə itkiləri olmuşdur. Ölkələr tərəfindən vergi güzəştlərinin tətbiqi ilə əlaqədar yaranan vergi xərcləri ilə bağlı illik hesabatların hazırlanmasının zəruriliyi diqqətə çatdırılmışdır.

Tədbirdə iştirak edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Babək İbrahimov Azərbaycan Respublikasında tətbiq olunan vergi güzəştləri barədə ümumi məlumat vermiş, kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan vergi güzəştləri mövzusunda təqdimatla çıxış etmişdir.